**Azərbaycan Respublikasının Seçki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, “Hərbi qulluqçuların statusu haqqında”, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında”, “Polis haqqında”, “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Dövlət qulluğu haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında”, “Hesablama Palatası haqqında”, “Media haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və “Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununun ləğv edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 3-cü, 5-ci, 10-cu, 15-ci, 16-cı, 17-ci, 18-ci, 19-cu, 20-ci və 25-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 274 (Cild I); 2024, № 5 (I kitab), maddə 489, № 7, maddə 756) 209.2-ci maddəsində “15000 manat” sözləri “respublika üzrə ildə bir dəfə müəyyən edilən orta aylıq nominal əməkhaqqının 20 misli” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikası Gömrük Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787 (Cild I); 2024, № 7, maddə 747; 2025, № 6, maddə 524, № 7, maddə 627) 334.1.2-ci maddəsinə “işçilərinin” sözündən sonra “(müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri istisna olmaqla)” sözləri əlavə edilsin.

**Maddə 3.** “Hərbi qulluqçuların statusu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 4, maddə 79; 1993, № 5, maddə 132; Azərbaycan Respublikasının 1995-ci il 2 may tarixli 1030 nömrəli Qanunu; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 378 (Cild I); 2024, № 11, maddə 1183) 10-cu maddəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Hərbi xidmətin şəraitindən, ixtisasdan, hərbi peşədən, hərbi rütbədən və hərbi xidmətdə olmağın müddətindən asılı olaraq hərbi qulluqçuların dövlət hesabına təminat xərcliyi (müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın rəhbəri, müavini və əməkdaşları, habelə müvafiq icra hakimiyyəti orqanında

hərbi xidmət vəzifəsində qulluq keçən dövlət qulluqçularına münasibətdə isə yalnız aylıq vəzifə və rütbə maaşı) almaq hüququ vardır.”;

3.2. 7-ci hissəyə “hərbi qulluqçularından” sözlərindən sonra “, habelə müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərindən, Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın rəhbəri, müavini və əməkdaşlarından, habelə müvafiq icra hakimiyyəti orqanında hərbi xidmət vəzifəsində qulluq keçən dövlət qulluqçularından” sözləri əlavə edilsin.

**Maddə 4.** “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 106 (Cild I); Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunu) 21-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. birinci hissədə “3550” rəqəmləri “17000” rəqəmləri ilə əvəz edilsin;

4.2. ikinci hissə aşağıdakı redaksiyada verilsin:

“Milli Məclis sədrinin birinci müavini 16000 manat, Milli Məclis sədrinin müavini 15000 manat, Milli Məclisin komitə və komissiya sədri 13000 manat, Milli Məclisin komissiya və komitə sədrinin müavini 11500 manat, Milli Məclisin deputatı 9000 manat məbləğində aylıq vəzifə maaşı alırlar.”;

4.3. üçüncü hissə ləğv edilsin.

**Maddə 5.** “Polis haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611 (Cild I); 2024, № 1, maddə 3; 2025, № 8, maddə 735, № 8, maddə 743) 35-ci maddəsinə aşağıdakı məzmunda III hissə əlavə edilsin:

“III. Bu maddənin I hissəsində polis əməkdaşları üçün nəzərdə tutulan təminatlar (vəzifə və xüsusi rütbə maaşları, habelə istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü, gecə vaxtı və iş vaxtından artıq vaxtda görülən işə görə normativ hüquqi aktlara uyğun olaraq müəyyənləşdirilən əlavə haqlar istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə, habelə Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın rəhbəri, müavini və əməkdaşlarına şamil edilmir.”.

**Maddə 6**. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 12 (Cild I); 2024, № 6 (I kitab), maddə 636, № 8, maddə 934, № 12 (II kitab), maddə 1337) ilə təsdiq edilmiş “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 109-1-ci maddə əlavə edilsin:

“109-1. Bu Qanunun 93-cü (vəzifə, xüsusi rütbə maaşları və elmi dərəcəyə görə əlavə istisna olmaqla), 94-cü, 96-cı, 97-ci, 99-cu və 109-cu maddəsinin ikinci abzasında gömrük orqanlarının vəzifəli şəxslərinə nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə şamil edilmir.”.

**Maddə 7.** “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1 (Cild I); 2024, № 5 (I kitab), maddə 489, № 7, maddə 748, № 8, maddə 934; 2025, № 2, maddə 96, № 6, maddə 539, № 7, maddə 606; Azərbaycan Respublikasının

2025-ci il 9 dekabr tarixli 305-VIIQD nömrəli və 30 dekabr tarixli 331-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1.1.19-cu maddəyə ikinci halda “dövlət qulluqçusunun” sözlərindən sonra “dövlət məvacibinin məbləğinin müəyyənləşdirilməsi,” sözləri əlavə edilsin;

7.2. 8-ci maddə üzrə:

7.2.1. 8.1.2-ci maddəyə “Konstitusiyası,” sözündən sonra “habelə” sözü, ikinci halda “qanunları” sözündən sonra “və ya Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsi” sözləri, “Məclisi,” sözündən sonra “Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı, müvafiq icra hakimiyyəti orqanlarının aparatları” sözləri əlavə edilsin;

7.2.2. 8.1.3-cü maddədən “Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı,” sözləri çıxarılsın və həmin maddəyə “Nümayəndəliyi” sözündən sonra “, müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətləri” sözləri əlavə edilsin;

7.3. 11-ci maddə üzrə:

7.3.1. 11.1.3.11-ci və 11.1.3.12-ci maddələr aşağıdakı redaksiyada verilsin:

“11.1.3.11. Azərbaycan Respublikası apellyasiya məhkəmələri, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanları, Azərbaycan Respublikası Audiovizual Şurası aparatlarının, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin rəhbərləri, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi;

11.1.3.12. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri;”;

7.3.2. 11.1.4.11-ci maddəyə “rəhbərləri” sözündən sonra “(bu Qanunun 11.1.3.11-ci, 11.1.4.17-ci və 11.1.5.5-ci maddələri nəzərə alınmaqla)” sözləri, “müavinləri” sözündən sonra “, həmin orqanların aparatlarında struktur bölmə (şöbə) rəhbərləri” sözləri əlavə edilsin;

7.3.3. 11.1.4.13-cü maddədən “müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən” sözləri çıxarılsın;

7.3.4. 11.1.4.14-cü maddədən “(bu Qanunun 11.1.3.12-ci maddəsi nəzərə alınmaqla)” sözləri çıxarılsın;

7.3.5. aşağıdakı məzmunda 11.1.4.16-cı və 11.1.4.17-ci maddələr əlavə edilsin:

“11.1.4.16. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, Naxçıvan Muxtar Respublikası Baş nazirinin, müvafiq icra hakimiyyəti orqanları rəhbərlərinin müşavirləri, köməkçiləri;

11.1.4.17. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətləri aparatlarının rəhbərləri və onların müavinləri;”;

7.3.6. 11.1.5.2-ci maddədə “rəhbəri və onun” sözləri “rəhbərinin” sözü ilə əvəz edilsin və həmin maddəyə “müavini” sözündən sonra “(bu Qanunun 11.1.5.5-ci və 11.1.5.9-cu maddələri nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

7.3.7. 11.1.5.4-cü maddədən “(bu Qanunun 11.1.4.13-cü maddəsi nəzərə alınmaqla)” sözləri çıxarılsın;

7.3.8. 11.1.5.5-ci və 11.1.5.9-cu maddələr aşağıdakı redaksiyada verilsin:

“11.1.5.5. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətləri aparatlarında struktur bölmə (şöbə) rəhbərləri və onların müavinləri, həmin orqanların rəhbərlərinin müşavirləri və köməkçiləri;”;

“11.1.5.9. Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Audiovizual Şurasının aparatlarında, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində struktur bölmə (şöbə) rəhbərlərinin müavinləri;”;

7.3.9. aşağıdakı məzmunda 11.1.5.12-ci maddə əlavə edilsin:

“11.1.5.12. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri aparatlarında struktur bölmə (şöbə) rəhbərləri;”;

7.3.10. 11.1.6.2-ci maddə ləğv edilsin;

7.3.11. 11.1.6.4-cü maddəyə “müavini” sözündən sonra “(bu Qanunun 11.1.5.12-ci və 11.1.6.4-1-ci maddələri nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

7.3.12. aşağıdakı məzmunda 11.1.6.4-1-ci maddə əlavə edilsin:

“11.1.6.4-1. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri aparatlarında struktur bölmə (şöbə) rəhbərlərinin müavinləri;”;

7.3.13. 11.1.8.2-ci maddədən ikinci halda “, onların müavinləri” sözləri çıxarılsın;

7.4. 17.1-ci maddənin birinci abzasının ikinci cümləsi çıxarılsın;

7.5. 22-ci maddə aşağıdakı redaksiyada verilsin:

“**Maddə 22. Dövlət qulluğunda qulluq stajı**

22.1. Dövlət qulluqçusunun dövlət qulluğunda qulluq stajı hesablanarkən aşağıdakı dövrlər nəzərə alınır:

22.1.1. dövlət qulluqçusunun tutduğu vəzifədə qulluq stajı;

22.1.2. bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq stajı;

22.1.3. dövlət qulluqçusu digər dövlət qulluğu vəzifəsinə keçirildikdə və qəbul edildikdə əvvəlki dövlət qulluğu vəzifəsindəki qulluq stajı;

22.1.4. dövlət qulluqçusunun əlavə təhsil müddəti;

22.1.5. məhkəmə və ya müvafiq səlahiyyətli orqan tərəfindən müəyyən edilmiş dövlət qulluqçusunun məcburi işburaxma dövrü;

22.1.6. dövlət qulluğu vəzifəsində staj və sınaq müddəti;

22.1.7. dövlət qulluğu vəzifəsinin və orta əməkhaqqının saxlanılması şərtilə dövlət qulluqçusunun dövlət qulluğundan ayrıldığı müddət;

22.1.8. əmək qabiliyyətinin müvəqqəti itirildiyi müddət;

22.1.9. ödənişli məzuniyyət dövrləri, o cümlədən uşağa qulluq etmək üçün qismən ödənişli sosial məzuniyyət müddəti;

22.1.10. müddətli həqiqi hərbi xidmətə çağırılmazdan əvvəl dövlət qulluğu vəzifəsində qulluq etmiş və ehtiyata buraxıldıqdan sonra bilavasitə yenidən dövlət qulluğu vəzifəsinə təyin edilmiş dövlət qulluqçusunun müddətli həqiqi hərbi xidmətdə olduğu müddət.

22.2. Dövlət qulluqçusunun qulluq stajının hesablanması onun qulluq etdiyi dövlət orqanı tərəfindən həyata keçirilir.

22.3. Dövlət qulluqçusunun qulluq stajı müəyyənləşdirilərkən onun qulluq stajına bu Qanun qüvvəyə minənədək qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında (o cümlədən Azərbaycan Respublikasının ərazisindən kənarda), habelə 1991-ci il oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarında iş müddəti də daxil edilir.

22.4. Dövlət qulluğunda qulluq stajı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə və (və ya) Dövlət qulluqçularının reyestrinə əsasən, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü ilin iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasına əsasən müəyyən edilir.

22.5. Dövlət qulluqçusunun bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illəri onun dövlət qulluğu stajına və dövlət qulluğu stajı onun bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilir.

22.6. Qulluğun (xidmətin) xüsusiyyətləri nəzərə alınaraq, dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinin dövlət qulluğu stajına və dövlət qulluğu stajının dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilməsi qaydasını və şərtlərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

22.7. Bu Qanunun 22.1-ci və 22.3-cü maddələrinin tətbiqi zamanı yaranmış fikir ayrılığı Şura tərəfindən aradan qaldırılır.";

7.6. 22-1.2-ci maddə ləğv edilsin;

7.7. 24-cü maddə üzrə:

7.7.1. adında "mükafatlandırılması" sözü "həvəsləndirilməsi" sözü ilə əvəz edilsin;

7.7.2. 24.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"24.1. Dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin artırılması məqsədilə həvəsləndirmə tədbirləri həyata keçirilir.";

7.8. 30-1.12.1-ci maddə ləğv edilsin;

7.9. ikinci halda IV fəsil VII fəsil hesab edilsin və aşağıdakı məzmunda VI fəsil əlavə edilsin:

"VI f ə s i l

**Dövlət qulluqçularının əməyinin ödənilməsi sistemi**

**Maddə 33-1. Əməyin ödənilməsi sisteminin tətbiqi və idarə edilməsi**

33-1.1. Dövlət qulluqçularının əməyinin ödənilməsi sistemi rəqabətqabiliyyətlilik, mütənasiblik, motivasiya, çeviklik və uyğunlaşma amilləri nəzərə alınmaqla bu Qanun və əmək qanunvericiliyi ilə tənzimlənir.

33-1.2. Dövlət orqanları dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait, müəyyən edilmiş işçilərinin ümumi say həddi və struktur bölmələrin yaradılması üçün işçilərin say həddi çərçivəsində ştat cədvəlində struktur bölmələrin və struktur bölmələrdə işçilərin sayının müəyyənləşdirilməsində sərbəstdirlər.

33-1.3. Bu Qanunun 33-1.1-ci maddəsində "rəqabətqabiliyyətlilik" dedikdə dövlət qulluqçularının dövlət məvacibinin səviyyəsinin özəl sektorda analoji vəzifələrin əməkhaqqı səviyyələri ilə qulluq funksiyalarının mürəkkəbliyi və məsuliyyəti baxımından balanslaşdırılması, "mütənasiblik" dedikdə dövlət

qulluqçularının dövlət məvacibinin dövlət orqanının kateqoriyasına, dövlət qulluğu vəzifəsinin təsnifatına, əməyin ödəniş səviyyəsinə, qulluq stajına və xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə uyğun olaraq müəyyən edilməsi, “motivasiya” dedikdə dövlət qulluqçusunun vəzifədə yüksəlişi ilə yanaşı tutduğu vəzifədə fərdi peşəkarlıq və yüksək səriştəlilik keyfiyyətlərinin artırılması ilə əlaqədar əməyinin ödənilməsi sistemi üzrə həvəsləndirilməsi, “çeviklik və uyğunlaşma” dedikdə dövlət qulluqçularının dövlət məvacibinin səviyyəsinin iqtisadiyyatın inkişaf səviyyəsinə uyğunlaşdırılmasının təmin edilməsi başa düşülür.

**Maddə 33-2. Dövlət məvacibi**

33-2.1. Dövlət qulluqçusunun məvacibinə daxildir:
33-2.1.1. aylıq vəzifə maaşı;
33-2.1.2. ixtisas dərəcəsinə görə əlavə haqq;
33-2.1.3. qulluq üçün zəruri olan hallarda aylıq iş vaxtı norması 5 saatdan çox artırılanda işlədiyi hər saata görə ödənilən əlavə haqq;
33-2.1.4. əmək qanunvericiliyinə əsasən əmək şəraiti ilə əlaqədar dövlət qulluqçularına şamil edilən əlavələr (qulluq şəraitinin ağır və zərərliliyinə, iqlim şəraitinə və s.).
33-2.2. Dövlət qulluqçusunun aylıq vəzifə maaşı mütənasiblik amili nəzərə alınmaqla əməyinin ödəniş səviyyəsinə və pilləsinə uyğun olaraq müəyyən edilir.
33-2.3. Dövlət qulluqçularına dövlət büdcəsindən ödənilən dövlət məvacibi yalnız bu Qanunla müəyyən edilir.
33-2.4. Bu Qanunun 33-2.1.4-cü maddəsində nəzərdə tutulan əlavələr müvafiq qaydada hesablanan məbləğin 50 faizi məbləğində tətbiq edilir.
**Qeyd:** Dövlət qulluğunun inzibati vəzifəsinə qəbul həyata keçirilənədək bu vəzifədə müvəqqəti işləyən, dövlət qulluqçusu olmayan işçinin aylıq vəzifə maaşı minimum əməkhaqqından aşağı olmamaqla həmin vəzifənin 1-ci ödəniş pilləsi üzrə vəzifə maaşının 50 faizi məbləğində müəyyən edilir.

**Maddə 33-3. Əməyin ödəniş səviyyələri və pillələri**

33-3.1. Dövlət qulluqçularının baza aylıq vəzifə maaşları (birinci ödəniş pilləsi) şaquli istiqamətdə dövlət orqanlarının kateqoriyasından, vəzifələrin təsnifatından, səlahiyyət həcmindən və iyerarxiyasından asılı olaraq inzibati vəzifələrin 35 və yardımçı vəzifələrin 17 ödəniş səviyyələri üzrə müəyyən edilir.
33-3.2. Dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə aylıq vəzifə maaşının minimum məbləğindən başlayaraq ödəniş səviyyələri üzrə baza aylıq vəzifə maaşları hər növbəti səviyyə üzrə əvvəlki baza aylıq vəzifə maaşına artım faizləri tətbiq edilməklə hesablanır.
33-3.3. Dövlət qulluğunun inzibati vəzifələri üçün müəyyən edilən minimum vəzifə maaşı yardımçı vəzifələrin ən yüksək səviyyə üzrə baza aylıq vəzifə maaşından az ola bilməz.
33-3.4. Dövlət qulluğu stajından və xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticəsindən və ya bu Qanunla müəyyən edilən hallarda yalnız dövlət qulluğu stajından asılı olaraq dövlət qulluqçusunun aylıq vəzifə maaşı üfüqi istiqamətdə 1-7-ci pillələr üzrə hər növbəti pillə üzrə baza aylıq vəzifə maaşına artım faizi tətbiq edilməklə müəyyən edilir.

33-3.5. Dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə aylıq vəzifə maaşının minimum məbləğləri, əməyin ödəniş səviyyələri üzrə vəzifələr, səviyyə və pillələr üzrə artım faizləri və aylıq vəzifə maaşlarının məbləğləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 33-4. Aylıq vəzifə maaşının müəyyən edilməsi şərtləri**

33-4.1. Dövlət qulluqçusunun qulluq keçdiyi tarixə aylıq vəzifə maaşının məbləği, eləcə də dövlət məvacibinə daxil edilən digər ödənişlər bu Qanuna və əmək qanunvericiliyinə əsasən müəyyən edilərək dövlət orqanının rəhbərinin əmri (sərəncamı) ilə rəsmiləşdirilir.

33-4.2. Dövlət qulluğuna staj və sınaq müddətinə qəbul edilmiş şəxslərin və ilk dəfə daimi dövlət qulluğuna qəbul edilən dövlət qulluqçularının aylıq vəzifə maaşları təyin edildiyi vəzifəyə müvafiq olaraq 1-ci ödəniş pilləsi üzrə müəyyən edilir.

33-4.3. Ali kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ali-üçüncü təsnifatları üzrə inzibati vəzifə tutan dövlət qulluqçusunun və bütün təsnifatlar üzrə yardımçı vəzifə tutan dövlət qulluqçusunun əməyinin ödəniş pilləsi dövlət qulluğunda qulluq stajının müddətindən asılı olaraq aşağıdakı kimi müəyyən edilir:

| Qulluq stajı (il) | Əməyin ödəniş pilləsi |
|---|---|
| 1 ilədək | 1-ci |
| 1 ildən 5 ilədək | 2-ci |
| 5 ildən 10 ilədək | 3-cü |
| 10 ildən 15 ilədək | 4-cü |
| 15 ildən 20 ilədək | 5-ci |
| 20 ildən 25 ilədək | 6-cı |
| 25 ildən yuxarı | 7-ci |

33-4.4. Bu Qanunun 33-4.3-cü maddəsində göstərilən inzibati vəzifələr istisna olmaqla, digər inzibati vəzifə tutan dövlət qulluqçusunun əməyinin ödəniş pilləsi qulluq stajına və dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə, habelə aşağıdakı hər hala əsasən 2-ci pillədən başlayaraq tutduğu pillədən bir pillə yuxarı müəyyən edilir:

33-4.4.1. qulluq stajına görə:

33-4.4.1.1. 1 ildən 5 ilədək;

33-4.4.1.2. 5 ildən 15 ilədək;

33-4.4.1.3. 15 ildən yuxarı;

33-4.4.2. qiymətləndirmənin nəticəsinə görə:

33-4.4.2.1. “əla” qiymətləndirildikdə;

33-4.4.2.2. iki il ərzində ardıcıl “yaxşı” qiymətləndirildikdə.

33-4.5. Xidməti fəaliyyəti qiymətləndirilən dövlət qulluqçularının qulluq etdiyi dövlət orqanında eyni vəzifədə xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə görə qulluq stajına görə tutduğu pillədən daha yüksək pillə tutmasına 3 dəfə yol verilir. Bundan sonra dövlət qulluqçusunun həmin vəzifədə əməyinin ödəniş pilləsinin artırılmasına qiymətləndirmənin nəticələrinə görə əvvəlki yüksəliş pillələri nəzərə alınmaqla yalnız staja görə yol verilir.

33-4.6. Xidməti fəaliyyəti qiymətləndirilən dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə görə əməyinin ödəniş pilləsi növbəti il yanvarın 20-dək müəyyən edilir və fevralın 1-dən dövlət orqanının ştat cədvəlində nəzərə alınır.

33-4.7. Dövlət orqanı üzrə qiymətləndirmə aparılan tarixə xidməti fəaliyyəti "əla" və ya "yaxşı" qiymətləndirilən inzibati vəzifə tutan dövlət qulluqçularının sayı hər bir qiymət üzrə həmin dövlət orqanı üzrə inzibati vəzifədə qiymətləndirilməsi aparılan dövlət qulluqçularının ümumi sayının 10 faizdən artıq olmamalıdır.

33-4.8. Dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanında başqa dövlət qulluğu vəzifəsinə keçməsi və ya digər dövlət orqanında dövlət qulluğuna qəbul edilməsi ilə əlaqədar əməyinin ödəniş pilləsi Azərbaycan Respublikasının Əmək Məcəlləsində müəyyən edilmiş qaydada əmək müqaviləsi və ya ona edilən dəyişikliklər qüvvəyə mindiyi gündən müəyyən edilir və əməyin ödəniş pilləsinə uyğun olaraq dövlət məvacibi həmin gündən hesablanır.

33-4.9. Dövlət qulluqçusu digər dövlət orqanında və ya qulluq keçdiyi dövlət orqanında daha yüksək ödəniş səviyyəsi üzrə dövlət qulluğu vəzifəsinə keçdikdə, əməyinin ödəniş pilləsi əvvəlki vəzifə maaşına ən yaxın yüksək vəzifə maaşına uyğun pillə üzrə, lakin dövlət qulluğu stajına görə müəyyən edilən pillədən aşağı olmayaraq müəyyən edilir. Dövlət qulluğuna xitam verildikdən sonra dövlət orqanında daha yüksək ödəniş səviyyəsi üzrə dövlət qulluğu vəzifəsinə təyin edilən dövlət qulluqçusuna bu maddədə müəyyən edilən qayda tətbiq edilmir, həmin dövlət qulluqçusunun əməyinin ödəniş pilləsi yalnız dövlət qulluğu stajına uyğun olaraq müəyyən edilir.

33-4.10. Dövlət qulluqçusu eyni təsnifatdan və ödəniş səviyyəsindən olan digər dövlət qulluğu vəzifəsinə təyin edildikdə əməyinin ödəniş pilləsi dəyişmir, aylıq vəzifə maaşı yeni dövlət qulluğu vəzifəsinə və əvvəlki ödəniş pilləsinə uyğun olaraq vəzifəyə təyin edildiyi tarixdən müəyyən edilir.

33-4.11. Eyni təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan vəzifəyə keçirilməsi, daha aşağı təsnifatdan olan vəzifəyə keçirilməsi intizam tənbeh tədbirlərindən biri tətbiq edilmiş dövlət qulluqçusu başqa dövlət qulluğu vəzifəsinə keçdikdə əməyinin ödəniş pilləsi dəyişmir və aylıq vəzifə maaşı keçirildiyi dövlət qulluğu vəzifəsinə uyğun olaraq müəyyən edilir.

33-4.12. Xidməti fəaliyyətinin qiymətləndirilməsi aparılan inzibati vəzifə tutan dövlət qulluqçusunun intizam tənbehinin qüvvədə olduğu dövrdə əməyinin ödəniş pilləsi xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə görə artırılmır. İntizam tənbehi götürüldüyü və ya qüvvədən düşdüyü vaxtdan həmin inzibati vəzifə tutan dövlət qulluqçusunun əməyinin ödəniş pilləsi xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi nəzərə alınmaqla müəyyən edilir.

33-4.13. Dövlət qulluğuna xitam verilərkən sonuncu qiymətləndirilməsi "qeyri-kafi" olmuş dövlət qulluqçusu digər dövlət orqanında dövlət qulluğuna qəbul edildikdə əməyinin ödəniş pilləsi qulluq stajına görə müəyyən edilir.

33-4.14. Dövlət qulluqçularının qulluq stajına və xidməti fəaliyyətinin qiymətləndirilməsinə görə aylıq vəzifə maaşının artırılması bütün hallarda dövlət orqanının rəhbərinin əmri (sərəncamı) ilə rəsmiləşdirilir və əmək müqaviləsində göstərilir.

33-4.15. Bu Qanuna uyğun olaraq müəyyən edilən vəzifə maaşları əsasında əməkhaqqı fondunun formalaşdırılması məqsədilə dövlət orqanlarının saxlanılması xərclərinin tərkibində hər il dövlət büdcəsində vəzifə maaşlarının 1-ci ödəniş pilləsi

üzrə hesablanan illik əməkhaqqı fondu və onun 7,5 faizi miqdarında əlavə vəsait nəzərdə tutulur.

**Qeyd:** Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri, Azərbaycan Respublikasının Baş naziri və onun müavinləri, Naxçıvan Muxtar Respublikasının Baş naziri və onun müavinləri, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, yerli icra hakimiyyəti orqanının rəhbəri (başçısı) vəzifələrini tutan şəxslərə münasibətdə onların əmək stajı, hərbi qurumlarda, hüquq-mühafizə və prokurorluq orqanlarında ali hərbi və ali xüsusi rütbələr nəzərdə tutulan rəhbər və onun müavinləri vəzifələrini, Naxçıvan Muxtar Respublikasında hərbi qurumlarda, hüquq-mühafizə və prokurorluq orqanlarında ali hərbi və ali xüsusi rütbələr nəzərdə tutulan rəhbər və onun müavinləri vəzifələrini və diplomatik orqanın diplomatik rütbə nəzərdə tutulan rəhbər və onun müavinləri vəzifələrini tutan şəxslərə münasibətdə isə onların xidmət illəri nəzərə alınmaqla əməyinin ödəniş pilləsi bu Qanunun 33-4.3-cü maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Qeyd edilən vəzifələr üzrə bu Qanunun 33-2.1.4-cü maddəsində nəzərdə tutulan əlavələr müvafiq qaydada hesablanan məbləğin 50 faizi məbləğində tətbiq edilir.”.

**Maddə 8.** “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452 (Cild I); 2024, № 12 (II kitab), maddə 1337; 2025, № 8, maddə 734) aşağıdakı məzmunda 21.6-cı maddə əlavə edilsin:

“21.6. Bu Qanunun 21.1-ci (vəzifə və rütbə maaşları istisna olmaqla), 21.2-1-ci, 21.3-cü və 21.4-cü maddələrində prokurorluq işçilərinə nəzərdə tutulan təminatlar Baş prokuror və onun müavinlərinə, habelə Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın rəhbəri, müavini və əməkdaşlarına şamil edilmir.”.

**Maddə 9.** Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 453 (Cild I); 2024, № 8, maddə 934, № 12 (II kitab), maddə 1337) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 100-1-ci maddə əlavə edilsin:

“100-1. Bu Qanunun 88-ci maddəsinin ikinci abzasında, 91-ci maddəsində (vəzifə və xüsusi rütbə maaşları istisna olmaqla) və 97-ci maddəsinin ikinci abzasında daxili işlər orqanları əməkdaşları üçün nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə, habelə Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın rəhbəri, müavini və əməkdaşlarına şamil edilmir.”.

**Maddə 10.** “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 601 (Cild I); 2025, № 1, maddə 5) aşağıdakı məzmunda 20.10-1-ci maddə əlavə edilsin:

“20.10-1. Bu Qanunun 20.2-ci (vəzifə və rütbə maaşları istisna olmaqla), 20.4-cü, 20.6-cı, 20.7-ci (pulsuz dövlət tibb xidməti istisna olmaqla) və 20.10-cu maddələrində kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektinin əməkdaşları üçün

nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanlarının rəhbərləri və onun müavinlərinə, habelə Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın rəhbəri, müavini və əməkdaşlarına şamil edilmir.”.

**Maddə 11.** “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 586 (Cild I); 2024, № 5 (I kitab), maddə 502, № 12 (II kitab), maddə 1337; 2025, № 7, maddə 606, № 7, maddə 617, № 8, maddə 743) aşağıdakı dəyişikliklər edilsin:

11.1. aşağıdakı məzmunda 23.12-ci və 25.7-ci maddələr əlavə edilsin:

“23.12. Bu Qanunun 23.2-ci (pulsuz dövlət tibb xidməti istisna olmaqla), 23.3-cü və 23.7-ci maddələrində ədliyyə orqanlarının işçiləri üçün nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə şamil edilmir.”;

“25.7. Bu Qanunun 25.1-ci (vəzifə, xüsusi rütbə maaşları və elmi dərəcəyə görə əlavə istisna olmaqla) 25.4 – 25.6-cı və 25-1-ci maddələrində ədliyyə orqanlarının işçiləri üçün nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə şamil edilmir.”;

11.2. 37.1-ci maddə üzrə:

11.2.1. birinci cümlədə “xərclərinə” sözü “xərcliyinə” sözü ilə əvəz edilsin;

11.2.2. aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Müvafiq icra hakimiyyəti orqanının rəhbərinin müavinin təminat xərcliyinə yalnız vəzifə maaşı və xüsusi rütbəyə görə əlavə daxildir.”.

**Maddə 12.** Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 972 (Cild I); 2024, 12 (II kitab), maddə 1337) ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 90-2-ci maddə əlavə edilsin:

“90-2. Bu Qanunun 86-cı (vəzifə və xüsusi rütbə maaşları istisna olmaqla), 89-cu və 90-cı maddələrində miqrasiya orqanları işçiləri üçün nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə şamil edilmir.”.

**Maddə 13.** “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 8, maddə 714 (Cild I); 2024, № 12 (II kitab), maddə 1337) aşağıdakı məzmunda 23.16-cı və 25.11-ci maddələr əlavə edilsin:

“23.16. Bu Qanunun 23.3-cü və 23.4-cü maddələrində fövqəladə hallar orqanları əməkdaşlarına nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə şamil edilmir.”;

“25.11. Bu Qanunun 25.1-ci (vəzifə və xüsusi rütbəyə görə maaşlar, elmi dərəcəyə və elmi ada görə əlavə istisna olmaqla), 25.6-cı, 25.7-ci və 25.9-cu maddələrində fövqəladə hallar orqanları əməkdaşları üçün nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə şamil edilmir.”.

**Maddə 14.** “Hesablama Palatası haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1820 (Cild I); 2024, № 12 (I kitab), maddə 1281) 34-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

14.1. 34.1-ci maddədə “3150” rəqəmləri “13000” rəqəmləri ilə əvəz edilsin;

14.2. 34.2-ci maddədə “2800” rəqəmləri “11500” rəqəmləri ilə əvəz edilsin;

14.3. 34.3-cü maddədə “2625” rəqəmləri “9000” rəqəmləri ilə əvəz edilsin;

14.4. 34.4-cü maddə ləğv edilsin.

**Maddə 15.** “Media haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 90 (Cild I); 2024, № 5 (I kitab), maddələr 488, 494, № 7, maddə 775; 2025, № 2, maddə 100, № 4 (I kitab), maddə 318, № 8, maddə 741) aşağıdakı dəyişikliklər edilsin:

15.1. 49.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“49.1. Şura sədri 11500 manat məbləğində, Şuranın digər üzvləri isə 9000 manat məbləğində aylıq vəzifə maaşı alırlar.”;

15.2. 49.2-ci maddə ləğv edilsin.

**Maddə 16.** “Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 7, maddə 386 (Cild I) ləğv edilsin.

**Maddə 17. Keçid müddəalar**

17.1. Bu Qanun qüvvəyə minənədək bu Qanunun 4-cü, 14-cü və 15-ci maddələrində nəzərdə tutulmuş şəxslərə ödənilmiş vəzifə maaşı, əlavə, mükafat və digər ödənişlər onların bu Qanunla müəyyən edilən aylıq vəzifə maaşına daxil edilir.

17.2. Bu Qanun qüvvəyə minənədək dövlət qulluqçularına dövlət məvacibinin tərkibi kimi ödənilmiş vəzifə maaşı, mükafat, əlavələr və digər ödənişlər, bu Qanunla aylıq vəzifə maaşına daxil edilməklə “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununun 33-2.1-ci maddəsi ilə yeni dövlət məvacibi müəyyən edilir.

17.3. Bu Qanunun tətbiqi ilə əlaqədar dövlət qulluqçusunun dövlət büdcəsindən ödənilən dövlət məvacibində, eləcə də Azərbaycan Respublikası Prezidenti Administrasiyasında, Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibinin xidmətində hərbi xidmət və xüsusi növ dövlət qulluqçusu vəzifəsində qulluq keçən dövlət qulluqçularının əvvəlki dövlət məvacibi və ya pul təminatı (2026-cı il yanvarın 1-dən əvvəlki 12 təqvim ayı və ya 12 təqvim ayından az qulluq keçdikdə faktiki qulluq keçdiyi tam təqvim ayları üzrə aldığı ödənişlərin cəmlənmiş məbləği müvafiq olaraq 12-yə və ya faktiki qulluq keçdiyi tam təqvim aylarına bölünməklə müəyyən edilən) ilə müqayisədə hazırkı dövlət məvacibi və ya pul təminatında (qanunla müəyyən edilmiş vergi, məcburi dövlət sosial sığorta haqqı və digər icbari ödənişlər çıxılmaqla) azalma baş verərsə həmin dövlət qulluqçularına dövlət məvacibi və ya pul təminatı arasındakı fərq növbəti əməkhaqqı artımları nəticəsində aradan qalxanadək ödənilir.

17.4. Bu Qanuna əsasən dövlət orqanının kateqoriyasının və inzibati vəzifənin təsnifatının dəyişməsi ilə əlaqədar yuxarı təsnifata aid edilən vəzifədə dövlət qulluğunu davam etdirən dövlət qulluqçuları (inzibati vəzifələrin tutulmasının ümumi şərtlərinə uyğun gəlməyən dövlət qulluqçuları istisna olmaqla) müsabiqə və müsahibəyə cəlb edilmir.

17.5. Bu Qanun qüvvəyə minənədək həyata keçirilmiş dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticələri əməyin ödəniş pilləsinin müəyyən edilməsində nəzərə alınmır.

**Maddə 18.** Bu Qanun 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 fevral 2026-cı il